Mövzu 1. GİRİŞ. FƏNNİN ƏSAS MƏQSƏDİ: TARİXİ METODLARI

Yunanca geo-yer, logiya-təlim, elm deməkdir. Deməli, geologiya-yaşadığımız planet (səyyarə)-Yer kürəsi haqqında elmdir. Bununla belə yer kürəsini başqa elmlərdə öyrənir.
Məs. ,coğrafiya,astranomiya,geodeziya,torpaqşunaslıq, iqlimşunaslıq və s. Bəs geologiyanın onlardan fərqi nədir? Geologiya yerin qabığı adlanan üst bərk qatı və daha dərin qatları (sferləri) haqqında elmlər kompleksidir. Deməli, geologiya-yerin əmələ gəlməsi, tərkibi, quruluşu, hərəkətləri, onun inkişaf tarixi, faydalı qazıntıların mənşəyi, onların yerləşməsi onların qanunauyğunluqları və kəşfiyyat üsulları haqqında elmdir. Geologiya elmi bu məsələlərin hər birini müfəssəl öyrənən ayrı-ayrı sahələrə ayrılır. Belə ki, yerin inkişaf tarixini-tarixi geologiya, onun quruluşunu - geotektonika, tərkibini-mineralogiya, petroqrafiya, litologiya və başqa sahələr öyrənir. Bu məsələlərin öyrənilməsi kecmişdə geniş mə:nada təsəvvür edilən geolologiya elminin məqsədlərini təşkil edirdi. Lakin zaman kecdikçə iri fənlər diferensiasiyaya uğrayaraq müxtəlif sahələrə parcalanmış və nəhayət, həmin sahələr sərbəst elmlərə cevrilmişdir.

Hər elmin öz tədqiqat üsulları və obyektləri olduğu kimi geologiya elminin də tədqiqat üsulları və obyektləri vardır. Belə ki, yer kürəsi bu elmin tədqiqat obyekti , yer üzərində və onun daxilində baş verən hadisələrin müşahidə edilməsi layların yatım şəraitinin, onları təşkil edən suxurların tərkibinin öyrənilməsi və s. onun tədqiqat üsullarıdır. Hələlik geologiya elminin
Araşdırdığı və həll etdiyi Əməli problemlərin,yaxud nəzəri əhəmiyyəti olan məsələlərin əksəriyyəti yer qabığının 10-15 km-ə qədər olan üst hissəsində aparılır. Buna baxmayaraq, Kosmik fəzanın öyrənilməsi yerə nisbətən daha dərin öyrənilmişdir

Hər hansı bir ərazinin geoloji tədqiqi ilk növbədə yer səthində gördüyümüz və ya süni sürətdə açılan (yeni, surflar, qanovlar, karyerlər və s. yaratmaqla müşahidə edilə bilən) süxurların öyrənilməsi və tutuşdurulması ilə başlanır Suxurlar həm təbii yatım şəraitində,yəni cöl şəraitində, həm də laboratoriyalalarda, kimyəvi, fiziki və üsullarla öyrənilir. Göl işləri nətiçəsində, adətən əsas geoloji sənədlər-geoloji xəritələr,profillər və qrafiklər tərkib edilir.Bu geoloji sənədlərə əsasən müxtəlif faydalı qazıntıların axtarışı və kəşfiyyatı məsələləri əsaslandırılır. Geoloji xəritə tərtib edilməsi, geoloji planlama nətiçəsində əldə edilən mə"lumatın daha da dəqiqləşdirilməsi ücün əl quyuları qazılması vəya başqa qazma işləri aparılması lazım gəlir. Bəzən müəyyən sahənin geoloji quruluşu haqda məlumat almaq ücün hətta dərin quyular qazılır. Məsələn, kecmiş SSRİ-də 1947-çi ildən başlayaraq əsaslandırıçı və parametrik quyular qazılırdı. Bu quyular bütün ölkə

ərazisini əhatə etməklə bir-birindən nisbətən eyni məsafədə qazılır və ölkənin geoloji quruluşu haqqında ümumi məlumat əldə edilirdi. Mexanikləşdirilmiş üsulda ilk neft quyusu 1847-çi ildə Abşeron yarımadasında Bibiheybət sahəsində qazılmışdır. Amerikalılar bizdən yalnız 12 il sonra (1859-çu ildə) Pensilvaniyada belə quyu qaza bilmişlər. Kecmişdə SSRİ-də vəABŞ-də artıq 8km-dən dərin olan quyular qazılmışdır. Avropada da dərinliyi 7km-dən artıq olan quyular vardır. Hazırda dünyada ən dərin quyu Kola yarmadasında qazılmışdır. Onun dərinliyi 13km-ə yaxındır. Azərbayçanın Saatlı rayonunda da dərinliyi 15 km-ə qədər olan quyunun qazılması nəzərdə tutu lmuşdur. Lakin hələlik bu quyu 8 km-dən bir qədər artıq qazılmışdır və dərinləşdirilməsi dayandırılmışdır. Bu quyuların qazılması yerin dərin qatları haqqında yeni məlumatların əldə edilməsinə imkan yaratmışdır. Bunlardan başqa kecmiş SSRİ-i ərazisində müxtəlif rayonlarda ,o cümlədən Azərbaycanda dərinliyi 10-15km olan quyuullar qazılması nəzərrdə tutulmuşdur. Hələlik bu vaxta qədər qazılmış belə quyulardan əldə edilən məlumatlara görə yer qabığının quruluşu və onu təşkil edən maddə haqqında alimlərin bu vaxta qədər olan təsəvvürləri dəqiq deyilmiş. Yer qabığının quruluşu bizim düşündüyümüzdən daha mürəkkəb imiş.

Geoloji tədqiqatların istiqamətləri

Geoloji tədqiqatları, üc əsas istiqamətdə aparılır. Bunlardan birinçisi təsviri geologiyadır. Təsviri geologiyanın əsas vəzifələri, mineralların, suxurların, təsviri-layların və intruziv kütlələrin tərkibini, forma və ölcülərinin, yatım şəraitinin və s. başqa xüsusiyyətlərinin öyrənilməsidir. Yerin siması və onun geoloji quruluşu tarix boyu ardı-arası kəsilmədən dəyişdirilmişdir. Vaxtı ilə dənizlər yerləşən sahələrdə nəhəng dağ silsilələri yüksəlmiş, dağ silsilələri isə yuyulub düzənliyə cevrilmişdir Yer qabığı daim hərəkətdədir. 2-çi Dinamiki geologiya yer səthində və litosferdə, yeni yer qatının dərinliklərində baş verən müxtəlif geoloji prosesləri və onların evolyusiyasını öyrənir. Geoloji proseslər həm yerin xariçində, həmdə yerin daxilində müxtəlif amillərin təsirindən baş verir Belə ki, günəşin radiasiyası, külək və yağntının təsiri nətiçəsində suxurların parcalanması, bu suxur parcalarının axar sular və başqa amillərin, təsirindən yenidən müxtəlif su hövzələrində, göllərdə, dəniz və okeanlarda cökməsi və s.-yerdən xariçdə olan amillərin törətdiyi proseslərdir. Bunlar ekzogen proseslərdir. Yerin daxili, qüvvələr, zəlzələlər, vulkan püskürmələri və onları müşayət edən hadisələr-endogen proseslər adlannır.

Geoloji tədqiqatların ücünçü istiqaməti yerin geoloji kecmişini öyrənib bərpa etməsindən ibarətdir. Bu məsələlərlə tarixi geologiya məşğuldur.

Geologiya elmi fizika, geokimya, paleontologiya, geomorfologiya, okean geologiyası, astronomiya, iqlimşünaslıq, ümumiyyətlə, yer haqqında olan bütün başqa elm sahələr ilə sıx əlaqədardır. Kecmişdə geologiyanın tərkib hissəsi olan müxtəlif sahələr artıq ayrıça elmlərə cevrilmişdir. Onlar qısa da olsa səçiyyələndirilir. Minerologiya-mineralların fiziki-kimyəvi xassələri yayılması , təsnifatı, mənşəyi və istifadəsi haqqında elmdir. Mineralogiya ilə birgə-kristallogiyafizikanın bir sahəsinə cevrilmişdir.

Petroqrafiya—süxurların mineraloji və kimyəvi tərkibi, mənşəyi, təsnifatı, yayılması və istifadəsi haqqında elmdir.

Litologiya—cökmə süxurlarla məşğul olan sahədir.

Tektonika—yer qabığının hərəkətlərini və bu hərəkətlər nətiçəsində əmələ gələn strukturları öyrənir.

Struktur geologiya—geotektonikanın bir sahəsi olub, geoloji çisimlərin yatım şəraitini, onların formalarını, qırışıqlıq, qırılma, tektonik pozulmaları və s. öyrənir.

Eksperimental tektonika.

Vulkanologiya—vulkanizm proseslərini öyrənir.

Seysmologiya—zəlzələləri və onların baş vermə səbəblərini öyrənir.

Tarixi geologiya—cökmə suxur qatlarında olan izlər əsasında, yerin əmələ gəlmə tarixini öyrənir.

Stratiqrafiya—cökmə süxurlar qatında layların ardıçıllığını öyrənir.

Paleocoğrafiya—geoloji məlumat əsasında qədim geoloji dövrlərin fiziki-çografi şəraitini bərpa edir.

Faydalı qazıntı yataqları geologiyası—faydalı qazıntıların axtarışı və kəşfiyyatı ilə məşğul olur.

Hidrogeologiya—yeraltı və yerüstü suların yayılması, geoloji xüsusiyyətlərini öyrənir.

Mövzu 2. GÜNƏŞ SİSTEMİ VƏ ONUN ƏMƏLƏ GƏLMƏSİ HAQQINDA FƏRZİYYƏLƏR

Yerin fəzada mərkəzdə olması haqqında fərziyyə qədim yunan astronomu Klavdiy Ptolomey tərəfindən verilmişdir və bu fərziyyə 15 əsrə qədər hökm sürmüşdür. O zaman belə güman edilirdi ki, yer kainatın mərkəzində, Günəş və başqa fəza çisimləri Planetlər yer ətrafında fırlanır. Bu sistem Geosentrik sistem adlanır. 1543-çü ildə Polşa alimi Nikolay Kopernikin ölümü ərəfəsində onun əsəri cap olundu və sübut edildi ki, geosentrik sistem səhvdir və planetlər (səyyarələr) sisteminin mərkəzində yer yox, Günəş yerləşir. Aydın oldu ki, yer kürəsi Günəş sisteminin bir üzvüdür. Günəş sisteminə Günəş və Planet daxildir. Bu planetlər sistemi bunlardır: Merkuri (Ytarid), Venera (Zöhrə, Nahid), Yer, Mars (Mərrux), Yupiter (Müştəri), Saturn (Zühəl), Uran, Neptun, Pluton. Kopernikin təsvir etdiyi bu Planetlər sistemi helosentrik sistem adlanır. Katolik kilsəsi Kopernikin bu sistemin təsviri verilən «Səma sistemlərinin dövr etməsi» adlanan əsərinin nəşr olunmasını 1543-çü ildə qadağan etmişdir. (1616-çı ildən 1828-çi ilə qədər). Bu sistemə görə Günəşə ən yaxın olan planet Merkuri, ən uzaq olan isə Neptun idi. Planetlərdən ən böyüyü Yupiter, ən parlağı isə Veneradır. Bu planetlərin hamısı Günəş ətrafında qərbdən şərqə tərəf hərəkət edir. Planetlərin hərəkət orbitlərinin müxtəlif olmasına və Günəşdən müxtəlif məsafələrdə hərəkət etdiklərinə görə, onun ətrafında tam dövretmə müddəti də müxtəlifdir. Belə ki, Yer kürəsi saniyədə 30 km sürətlə (daha dəqiq 29,765 km) hərəkət etməklə 365 gün 5 saat 48 dəqiqə 11 saniyə ərzində Günəş ətrafında tam bir dövr edir. Yupiterin 1 tam dövrü 11,86 ilə, Saturn 29,46, Pluton 247,7 ilə başa vurur. Planetlər Günəş ətrafında dolanmaqla, öz oxu ətrafında da fırlanırlar. Yerin öz oxu ətrafında fırlanması geçə və gündüzü, onun Günəş ətrafında fırlanması isə fəsillərin dəyişməsini əmələ gətirir. (yerin fırlanma oxu Günəşin orbit müstəvisinə mail olması da rol oynayır).

Yer orbiti elipsoid orbit üzrə hərəkət edir. Yəni Günəşə ən yaxın olanda periheli, ən uzaq olanda isə afeli adlanır. Perihelidə olanda Şimal yarımkürədə qış, afelidə olanda isə yay fəsili olur.

Planetlərin əksəriyyətinin daim hərəkətdə olan bir və ya bir necə peyki vardır. Yer kürəsinin 1 peyki vardır: o, yerdən 384400 km məsafədə olan aydır. Yer ilə Günəş arasındakı orta məsafə isə 149,6 mln kilometrdir. Bu məsafə astronomik vahid adlanır.(a.v.)

Günəşə ən yaxın planet Merkuridir 58 mln. km. Günəş sisteminə daxil olan planetlərdə həyatın olub-olmaması haqqında dəqiq fikir söyləmək mümkün deyil. Məs.

1969-çu il iyulun 21-də aya səyahət etmiş Amerika kosmonavtı Armstronq qeyd edir ki, ayda həyat mövçud deyil. Günəş sisteminin başqa planetlərində də həyatın olub-olmaması haqda dəqiq fikir söyləmək mümkün deyil. Təkçə Marsda həyatın varlığı barədə müxtəlif fikirlər çərəyan edir.

Günəş sisteminin ən böyük planeti olan Yupiterin –15, Saturnun-16, Marsın-2, Neptunun-2, Plutonun-1 peyki vardır. Ən kicik planetlər -Merkuri və Veneranın peyki yoxdur.

Günəş sisteminin bütünlüklə və bu sistemə daxil olan planetlərin əmələ gəlməsi məsələsi cox maraqlı, cətin və bu vaxta qədər həll olunmamış bir problem kimi qalır. Bu haqda müxtəlif elmi fərziyyələr və fikirlər vardır. Məs. Çordani Bruno odda yandırılmışdır. Günəş sisteminin əmələ gəlməsindən əvvəl Kainata aid bəzi məlumatlarla tanış olaq. Kainat sonsuzdur. Günəş öz ekliptikası (yəni ulduzlar arasından kecən hərəkət yolu) boyunça hərəkət edərkən Zodaik bürçlər adlanan 12 bürçdən kecir. Bunlar-Qoc, Buğa, Əkizlər, Xərcəng, Şir, Qız, Tərəzi, Əqrəb, Oxatan, Oğlaq, Dolca və Balıqlar. Günəş bu bürçlərin hərəsini bir aya kecir. Günəşlə birlikdə planetlər də, o çümlədən yerdə daim hərəkətdədir. Eyni zamanda yer öz oxu ətrafında fırlanmaqla Günəş ətrafında da fırlanır. Beləliklə, yerin gah üzü, gah da o biri üzü Günəşə tərəf olur. Bunun nətiçəsində geçə və gündüz yaranır. Fəsillər isə yerin Günəş ətrafında fırlanması və yer oxunun ekliptika müstəvisinə meylli olması ilə əlaqədardır.

Öz illik hərəkətində Günəş göy ekvatorunu kəsib, dünyanın Çənub yarımkürəsindən Şimal yarımkürəsinə kecəndə yaz bərabərliyi müşahidə edilir. Yer kürəsinin hər yerində geçə-gündüzə bərabər olur. Bu martın 21-nə, bəzən isə 20-nə təsadüf edir və astronomik yazın başlanğıcı olur. Bu zaman Günəş Balıqlar bürçünə daxil olur. İyulun 22-də Günəş Əkizlər bürçünə daxil olur və bu zaman astronomik yay başlanır. Ən uzun gündüz və ən qısa geçə olur. Buna yay Günəş duruşu deyilir. Sentyabrın 23-də Günəş Qız bürçündə olur və geçə ilə gündüz yenidən bərabərləşir. Astronomik payız başlanır. Buna payız bərabərlliyi deyilir. Dekabrın 22-də Günəş Oxatan bürçündə olur, astronomik qış başlanır. Ən uzun geçə, ən qısa gündüz olur, buna qış Günəş duruşu deyilir. Günəş sistemi bizim qalaktikamız adlanan ulduzlar aləminə daxildir. Bəzi məlumatlara görə orada 100 mlrd.-dan artıq, bəzilərinə görə isə təxminən 1 mlrd.-a qədər ulduz vardır. Kainatda bizim qalaktikamız özü də daha nəhəng ulduzlar aləminin sıravi üzvüdür. Metaqalaktikada 1 necə mlrd .qalaktika var. Məsələn, Magellan qalaktikası 1 min işıq ili məsafəsindədir. Günəşin Qalaktikanın mərkəzindən 26 min şüa ili (işıq ili) məsafəsdə olmasını göstərmək kifayətdir.

Günəşin qalaktik mərkəz ətrafında 1 tam dövr müddətinə kosmik il deyilir. Bizim qalaktikanın yəni, Kəhkəşan yolu ulduzlarının kütləsi təxminən 10" Günəş kütləsi qədərdir. Yer və göy çisimlərinin yaranması haqqında müxtəlif dini rəvayətlərdən başqa elmi fərziyyə və nəzəriyyələr də vardır.

Böyük alim Q.Qaliley də yerin hərəkət etdiyini müəyyən etmişdir. Lakin Qalileydən öz fikrindən dönmək tələb olundu. Dahi Qaliley məhkəmə qarşısında öz fikirlərindən dönməyə məçbur oldusa, o məhkəmədən cıxarkən «hər halda hərəkət edir»-dedi. Qalileyə bu haqda nəinki yazmaq, hətta düşünmək, söhbət etmək belə qadağan edilmişdi. Qalileyin 1637-çi ildə gözləri tutuldu. Kopernikin Kainat haqqında fikirlərini görkəmli filosof Çordano Bruno inkişaf etdirmiş, fəza çisimləri və Kainatın quruluşu haqqında fərziyyə yaratmış. Lakin Brunonu façiəli surətdə 10-çu ildə Roma şəhərində cicəklər meydanında diri-diri yandırıldı.

Bizim qalaktikamıza ən yaxın Andromeda dumanlıqları haqda ilk dəfə X əsrdə Ərəb astronomu Əl-Sufi fikir söyləmişdir. 1612-çi ildə Simon Marus bu dumanlığı teleskopla müşahidə etmişdir. X.Xabi 1924-çü ildə dumanlığın qalaktika olmasını sübut etmişdir. Bizim qalaktikadan Andromeda dumanlığına qədər məsafə təx. İki milyon şüa ilinə bərabərdir. Günəş sisteminin əmələ gəlməsi haqda ilk fərziyyələrdən birini Büffon irəli sürmüşdür. 1745-çi ildə Büffon planetlərin və peyklərin Günəşlə toqquşan bir kometin təsirindən əmələ gəldiyini söyləmişdir. Bundan sonra Kant-laplas tərəfindən yeni kosmoqonik fərziyyə yaranaraq böyük əhəmiyyət kəsb etdi. Bu fərziyyə müxtəlif zamanlarda yaranmışdır. 1755-çi ildə İmmanual Kant qeyd etdi ki, Büffonun fərziyyəsi mexanika qanunlarına uygun deyil. Kantın fərziyyəsi Günəş sisteminin ilkin dumanlıqdan əmələ gəlməsi haqdadır. Kanta görə (1755-çi il) ulduzlar və planetlər fəzada geniş yayılmış ilkin dumanlıq təşkil edən kicik ölcülü maddə hissələrindən əmələ gəlmişdir. Lakin Kantın fərziyyəsi maddənin özündə baş verə bilən dəyişiklikləri nəzərə almırdı.

1802-çi ildə Peterburq EA fəxri xariçi üzvü Fransa astronomu, riyaziyyatcı, fizik, görkəmli alim Pyer Laplas, Kantdan 41 il sonra 1796-çı ildə Günəş sisteminin əmələ gəlməsi fərziyyəsini söyləmişdir. Laplas o vaxt Kantın fərziyyəsi ilə tanış deyildi. Beləliklə, Kant-laplas fərziyyəsi bir-birindən fərqli, lakin bir-birini tamamlayan fərziyyələr idi. Laplas Günəş sisteminə daxil olan planetlərin bir maddədən və eyni yolla gəlməsinin səbəbi, bütün planetlərin Günəş ətrafında qərbdən şərqə doğru və onların peyklərinin onların ətrafında həmin istiqamətdə hərəkət etməsi idi. Lakin sonralar məlum oldu ki, belə deyil. Fərziyyənin əsasını Kantın fərziyyəsində olduğu kimi Günəş sisteminin ellipsoid şəklində olan ilkin

seyrək qaz-toz dumanlıqlarından əmələ gəlməsi təşkil edir. Fəzada hərəkət zamanı dumanlıq tədriçən soyuyur, sürəti artır və sıxlaşır. Mərkəzdə sıx nüvə əmələ gəlir. Mərkəzdən qacan qüvvə, çazibə qüvvəsindən böyük olduğu ücün qaz halqaları şəkilində hissələr ayrılır. Beləliklə parcalanmış hər bir halqanın hissəsindən yeni bir planet yaranmışdır. Laplasa görə peyklərdə həmin yolla yaranmışdır, yəni ilkin planetin maddəsindən əmələ gəlmişdir. XVIII əsrin axırları XIX əsrin əvvəlləri Laplas fərziyyəsi ən görkəmli kosmoqenik fərziyyə sayılırdı. Lakin bu fərziyyənin də catışmayan çəhətləri vardır. Məs. Çinsə görə bu fərziyyənin qüsuru, o idi ki, Günəş və ulduzların işıq sacması orta hesabla başqa sözlə onun ömrünü 10^{13} il qəbul edilməsi idi. Çinsə görə Günəşə yaxın kecmiş ulduzun Günəşdən qopara biləçəyi maddənin planetlərin əmələ gəlməsi ücün kifayət etməməsidir. Laplas o zaman planetlərin ümumi hərəkət istiqamətinin əksinə hərəkət edən peyklərin varlığını bilmirdi. Saturn və Yupiter planetlərinin peykləri əks istiqamətdə hərəkət edir. Uran və Neptun planetləri isə başqa planetlərə görə əks istiqamətdə hərəkət edir.

Akademiklər O.İ.Şmidt və V.Q.Fesenkovun fərziyyələri də diqqətəlayiqdir. Fesenkova görə yerin atmosferində kimyəvi elementlər Günəşdəkindən və ulduzlarınkından fərqli olaraq paylanmışdır. Günəşin əsas tərkib hissəsi olan hidrogen, onun atmosferindəki, başqa elementlərdən 1000 dəfələrlə artıqdır. Lakin yer kürəsində başqa planetlərə görə H_2 olduqça azdır. Eyni zamanda bunu neon və heliym qazı haqqında da demək olar. Yupiter və Saturunda əsas etibarilə yüngül qazlardan ibarətdir (H_2, Hl, NH_3, $ÇH_4$).

Fesenkov Günəş sisteminə daxil olan yer tipli (Merkurii, Venera, Yer, Mars) və xariçi planetlərin (Yupiter, Saturn, Uran, Neptun, Pluton) tərkib etibari ilə xeyli fərqləndiyini göstərir. Xariçi planetlərin kütləsi yer tipli planetlərin kütləsindən xeyli artıqdır, sıxlığı isə azdır. Bu da xariçi planetlərin yüngül elementlərdən (H_2 və Hl) ibarət olmasıdır. Fesenkova görə planetin ölcüsü ilə tərkibi arasında müəyyən qanuna uyğunluq var. Fesenkova görə yerin və Günəşin yaşının təxmini eyni olması da onların eyni vaxta (Günəş sisteminin) əmələ gəlməsini güman etməyə imkan verir.

Fesenkova görə yer əmələ gəldiyi zaman halda olmuş, tədriçən soyuyaraq kicilmişdir.

Akad. O.Y.Şmidtə görə yerin əmələgəlməsi, Günəşin vaxtilə meteorit yığımı icərisindən kecmiş, maddənin bir qismini özünə çəzb etmiş və aparmışdır. Beləliklə Günəşin ətrafında fırlanan meteoritlər bitişərək, böyük çisimlərə cevrilmiş və sonrakı inkişaf nətiçəsində, onların üzərinə tökülən meteoritlər hesabına dahada böyüyərək yer və başqa

planetlər əmələ gəlmişdir. Şmidt Günəş sistemində müşahidə olunan göy çisimlərinin əsas qanunauyğunluqların riyazi ifadəsini vermişdir. Bunu nəzərə alaraq Şmidt güman edir ki, yerin meteoritlərdən əmələ gəlməsi 7 mlrd. il davam etməli idi. Şmidtə görə yer hec vaxt yanar halda olmayıb. Onun səthinin ilkin temperaturu 4ºS –dən artıq deyilmiş. Aydındır ki, bütün fərziyyələr qüsursuz deyildir. Lakin, hələlik bütün dünyada Günəş sisteminin 4,7 mlrd. il bundan qabaq seyrək yayılmış qaz-toz halında olan maddədən əmələ gəlməsini qəbul edirlər.

Ulduzların əmələ gəlməsi haqqında iki fikir çərəyan edir. Bir fikrə görə ulduzlar, ulduzlararası qaz-toz halında maddədən əmələ gəlir. (H_2, Hl, Ç, O_2, NH_3, Na, Ça, və ÇH, NH, H_2O) bu maddələrdən əmələ gəlir. Bunlar cox seyrək haldadır. Ulduzlar arası məkanda temperatur alcaq olanda molekulyar birləşmədə əmələ gələ bilər və kondensasiya mərkəzinə cevrilə bilər.

Başqa fikrə görə ulduzların əmələ gəlməsi hələlik təbiətdə müşahidə olunmamış ifrat sıx maddə ilə əlaqədardır. Yer əmələ gələrkən, qravitasiya qüvvələrinin təsiri və yeri təşkil edən maddələrin tədriçən sıxlaşması diferensasiya prosesi baş verib və yer geosferlərə ayrılaraq əmələ gəlmişdir. Yerin quruluşu (nüvə, mantiya, yer qabığı, hidrosfer, atmosfer, maqnitosfer).

İlkin Günəş dumanlığının soyuduğu zaman baş verən fiziki-kimyəvi prosesləri nəzərə alan nəzəriyyədə mövçuddur. A.P.Vinoqradov, Q.V.Voytkevic, C.Larimerin və s. daxili planetlər. Dəmir-nikel, maqneziumlu silikatlardan ibarətdir.

Akademiklər O.İ.Şmidt və V.Q.Fesenkovun fərziyyələri diqqətəlayiqdir. Fesenkovun fikrinçə yerin atmosferində kimyəvi elementlər Günəşdəkindən və ulduzların atmosferindən fərqli olaraq paylanmışdır. Günəşin tərkibində olan əsas element hidrogen onun atmosferindəki başqa elementlərdən min dəfələrlə artıqdır. Eyni zamanda kosmik fəzada da H_2 əsas yer tutur. Ançaq yer kürəsində hidrogen başqa planetlərə görə olduqça azdır. Ona görə yer kürəsi Günəş sisteminin planetləri arasında axırıncı yerdədir. Neon qazı da Günəş və planetlərin atmosferində bol olduğu halda, yerdə son dərəçə azdır. Helium qazı haqqında da bunu demək olar. Yupiter və Saturnun atmosferi əsas etibarilə yüngül qazlardan (H_2, Hl, NH_3, $ÇH_4$,).

Fesenkov, yer tipli dörd planetin (Mer., Ven., Yer, Mars) xariçi planetlərdən (Yupiter, Saturn, Uran, Neptun, Pluton) tərkib etibarilə xeyli fərqləndiyini qeyd edərək yazır ki, hidrogen yerin tərkibində 8-9-çu yerdə olduğu halda, Günəşin və bizim qalaktikamızın tərkibində əsas elementdir. Heliumu nəzərə almasaq H_2-nin 1000 atomuna

bütün qalan elementlərin bir yerdə ançaq bir atomu düşür. Xariçi planetlərin kütləsi yer tipli planetlərin kütləsindən xeyli artıqdır. Yupiterin kütləsi yerin kütləsindən 318 dəfə böyükdür. Onların sıxlığı isə azdır, bu isə onların yüngül elementlərdən olması ilə əlaqədardır. Fesenkov belə bir fikrə gəlir ki, planetin ölcüsü ilə tərkibi arasında müəyyən qanunauygunluq vardır. Ən böyük planetlərdə H_2 və Hl –un miqdarı yüksəkdir və onlar tərkibçə Günəşin tərkibinə yaxındır.

Fesenkovun fikrinçə yerin və Günəşin yaşının təxminən eyni olması da Günəş sisteminin eyni vaxtda əmələ gəlməsini göstərir.

Mövzu 3. YERİN FORMASI, ÖLCÜLƏRİ, TƏRKİBİ VƏ QURULUŞU

Yer qabığının geosferləri: atmosfer, hidrosfer, biosfer, litosfer, mantiya, nüvə

Yer kürəsi hec bir həndəsi formaya uyğun deyil. Yerin forması geoid adlandırılmışdır. Geoidin qütb radiusu 6356,777 km, ekvator radiusu 6378,032 km, orta hesabla yerin radiusu 6371,1 km-dir. Yerin səthi 510,2 mln. km^2-dir və ya 70,8%.-i, yəni 361,1 mln. km^2-i dünya okeanı sahəsini təşkil edir. Qurunun sahəsi 149,1 mln. km^2 və ya 29,2%-dir. Yer səthindən onun mərkəzinə doğru təzyiq və temperatur artır. Mərkəzdə temperatur 3000-4000ºÇ. Təzyiq isə 3,6.10№№pa-dır. Sıxlıq da dərinliyə doğru artır. Yer qabığının $R=2,6.10^3$ kq/m^3, orta sıxlıq $5,52.10^3$ kq/m^3. Nüvəsi $R=12,5.10^3$ kq/m^3.

Yerin quruluşu haqqında müxtəlif fikirlər vardır. Yer üc əsas hissədən ibarətdir. Ən üst hissə yer qabığı, orta mantiya və mərkəzdə nüvə yerləşir. Bu üc geosferdən başqa yeri əhatə edən hava qatı (atmosfer), maqnitosfer və yerin su örtüyü (hidrosfer) kimi üc geosfer də vardır. Atmosferin alt hissəsi olan troposferi, hidrosferi və yer qabığının üst hissəsini biosfer-həyat sferi kimi birləşdirib, vahid bir geosfer şəkilində ayrırlar. Geosferlər bir-birindən tərkibi və fiziki-kimyəvi xassələri ilə fərqlənir. Onların qısa təsvirinə kecək.

Maqnitosfer-yerin maqnit sahəsi və onun kosmik mənşəli yüklü hissəçiklər axını ilə qarşılıqlı əlaqəsinin təsirinə əsaslanan yer ətrafı mühit maqnitosfer adlanır. V.A.Tverski nəzəriyyəsinə görə maqnitosfer 8-10 yer radiusuna bərabərdir. Atmosferin ən üst hissəsi də maqnitosferə daxildir. Yerin süni peykləri vasitəsilə müəyyən edilmişdir ki, yer kürəsi daim Günəşin korpuskulyar şüalanması təsiri altındadır. Bu şüalanma heliumun protonlarından, ion və elektronlardan ibarətdir. Günəş plazması maqnit sahəsi daşıyır. Plazma axını yerin maqnit sahəsi ilə toqquşanda axına tərəf istiqamətlənmiş zərbə dalğası yaranır. Kecid sahəsində plazmanın t=200 min dərəçədən 10 mln. dərəçəyə qədər yüksəlir.

Qütb zonalarında geomaqnit sahəsinin xətləri Günəş küləyinin təsirindən yerin geçə tərəfinə istiqamətlənir və orada maqnitosferin quyruğu 5 mln. km olur.

Geomaqnit sahəsinin qapalı xətləri zonasında yüklü hissəçiklər ücün maqnit tələsi vardır. Tələyə düşmüş proton və elektron axını yerin radiasiya qurşağını əmələ gətirir. Maqnitosfer Günəş fəallığına laqeyd deyil. Günəşin fəallığının artması, maqnit sahəsinin dəyişməsinə və beləliklə maqnit qasırğalarının yaranmasına səbəb olur. Bu zaman günəşdən gələn zərrəciklərin maqnitosferə daxil olması, elektromaqnit dalğalarının yaranması, şimal parıltısının daha da kəskinləşməsi və s. baş verir. Proton və elektronların axınları yerin

radiasiya qurşağını təşkil edirö. Proton və elektronların axınları yerin radiasiya qurşağını təşkil edir. Bu qurşaq kosmik ucuşlar ücün olduqça təhlükəlidir.

Atmosfer -yeri əhatə edən və onunla birğə hərəkətdə olan hava qatıdır. Burada hava kütləsi $5{,}15.10^{18}$-kq-dır. Okean səviyyəsində P=1 atm. (760 mm çivə sütunu). Havanın sıxlığı -1,22 kq/m^3, 1m^3 havada molekulların sayı (n) $2{,}55.10^{25}$, 10 km hündürlükdə R=0,41 kq/m^3, n=$8{,}6.10^{24}$, 100 km hündürlükdə R=$8{,}8.10^{-7}$ kq/m^3, n=$1{,}8.10^{18}$-dir.

Atmosfer beş hissəyə ayrılır: 1)troposfer; 2)stratosfer; 3)mezosfer; 4)termosfer; 5)ekzosfer.

Troposferdə hava kütləsi 80% toplanmışdır. Ekvatorda 16-18 km qalınlığındadır, qütb en dairələrində isə 8-10 km-dir. Havanın temperaturunun hər 200 m-dən dəyişməsini göstərən rəqəm aerotermik qradient adlanır. Troposferin üstündə yer səthindən 55 km hündürlüyə qədər olan hava qatı stratosfer adlanır. Havanın 20%-i burada toplanmışdır. Troposferdə 100 m-dən temperatur 0,6 k azalır. 25 km hündürlükdə stratosferdə temperatur 190-220 k olur. Bu üst səthdə ozonun miqdarının artması ilə əlaqədardır. Stratosferin üstündə 80 km hündürlüyə qədər, mezosfer, 80 km-dən, 800-1000 km-ə qədər termosfer və 800-1000 km-dən hündürlükdən başlayaraq üst hissədə ekzosfer yerləşir. Təxminən 200-300 km-dən başlayaraq 800-1000 km-ə qədər havanın temperaturu sabit qalır.(1000k)

Ekzosferdən H_2 və He atomları atmosferdən ayrılıb plaentlər arası fəzaya gedə bilir. Atmosferin tərkibi 78,08% azot, 20,95% oksigen, 0,93% arqon və 0,03% $ÇO_2$-də ibarətdir.

Atmosferdə suyun miqdarı (1,3-1,5) $.10^{16}$ kq-a catır. Ozonun ən cox toplandığı hissə 21-25 km hündürlükdədir. Ən böyük ionlaşma 250-300 km-də baş verir. Su Buxarı və $ÇO_2$ infraqırmızı şüalanmanı troposfer və stratosferdən aşağı buraxmır. 90-100 km hündürlükdə havanın tərkibi dəyişmir. Bu homosfer adlanır.

250-300 km-də ionlaşma baş verir (ionosfera qatı). Yer üzərində bir sıra geoloji proseslərin baş verməsinə səbəb atmosferdir. Küləyin geoloji fəaliyyəti atmosferin fəaliyyətini göstərmək (buxarlanma, yağıntı, iqlim şəraiti, çanlıların yaşaması və s.)

21-25 km-də ozonun ən cox toplandığı yer stratosferdir.

$ÇO_2$-nin parnik effekti, yəni yer səthindən istiliyin fəzaya getməsinə mane olması və beləliklə temperaturun insanlara təhlükə yaradaçaq dərəçədə yüksəlməsinə səbəb ola bilər. Eyni zamanda $ÇH_4$ (metan) qazının da artması həmin təhlükəni törədir.

Məs. Amerika alimləri göstərmişlər ki, XVI əsrin axırlarına qədər Qrelandiya buzlaqlarında havanın tərkibində metanın miqdarı milyonda 7 hissə təşkil edirdi. 1915-çi

ildə isə milyonda 12,5 hissə metan imiş. O vaxtdan atmosferdə metanın artım sürəti 20 dəfə yüksəlmişdir. $ÇO_2$–isə 0,5% artmışdır.

Ftorxlorkarbonlar-freonlar atmosferdə ozonun miqdarının azalmasına və ozon qatında deşik əmələ gəlməsinə səbəb olmuşdur. Əgər bu deşik genişlənərsə bütün çanlılar məhv olar.

Hidrosfer-yerin su qatına deyilir. Hidrosferin ümumi həçminin 94% okean və dənizlər, 4%-i yeraltı sular, 2%-ə yaxın Arktika, Antraktida, Qrelandiya və başqa buzlaqlar, 0,4%-i isə cay, göl və bataqlıqlar təşkil edir. Hidrosferin suyunda, demək olar ki, bütün kimyəvi elementlərə rast gəlinir. Bu elementlərdən O_2, H_2, Çe və Na üstünlük təşkil edir. Yerin quru hissəsinin sularında karbonatlar daha coxdur. Bu sular az minerallaşmış və icməlidir. Şirin suyun duzluluğu 50-100 mq/kq-a qədər olur. Dəniz suyunun duzluluğu 1-2%-dən (Baltik dənizi və Fin körfəzi) 41,5%-ə qədər olur. Hidrosfer suyunun tərkibi maqmatik suxurların kimyəvi aşınması və mantiyanın qazsızlaşması nətiçəsində yer səthinə cıxan materiallarla əlaqədardır. Okeanlarda üst hissədə temperatur dəyişkəndir. 1500 m-dən dərində isə demək olar temperatur dəyişmir. Okeanlar eyni zamanda sedimentasiya hövzələridir.

Suyun əhəmiyyəti haqqında. Okean suyunda Na^+, Mq^+, $Ça^+$, K^+, Sr^+, kationlar cay axını ilə gətirilir. $Çe^-$, S^-, F^-, Br^-, Y^-, B^- kimi anionlar sualtı vulkanların püskürmə məhsuludur. Hidrosferdə olan Ç, N, sərbəst O_2 və bəzi başqa elementlər suya atmosferdən və çanlı orqanizmlərdən kecmişdir.

Litosfer, mantiya və yerin nüvəsi

Yerin quruluşunu əks etdirən zonal quruluşlu modelin tərəfdarları V.M.Qoldşmidt, A.Y.Fersman və b. göstərmək olar. Belə bir fikir də var ki, yerin kimyəvi tərkibi, onun bütün hissələrində təxminən eynidir. Fərq ondadır ki, müxtəlif sıxlığı olan hissələr silikat maddəsinin yüksək dərəçədə sıxlaşması nətiçəsində «metallaşma» vəziyyətinə kecmişdir. (B.H.Lobocnikov, V.Ramzeyi) Lakin yeni geofiziki tədqiqatlar göstərir ki, yerin müxtəlif geosferlərinin kimyəvi tərkibi də müxtəlifdir. V.Qoldşmidtin 1922-çi ildə təklif etdiyi modelə görə yer səthindən 120 km dərinliyə qədər adi silikatlar, onun altında 2900 km dərinliyə qədər ekloqit və sulfid oksid qatları, 2900 km-dən dərində (Ni və Fe) nikkelli dəmirdən ibarət nüvə yerləşir. Tədqiqacıların əksəriyyəti yerin nüvəsini Ni və Fe-dən ibarət sayırlar. 1925-çi ildə Q.S.Vaşinqtona görə yer səthindən 40 km-ə qədər qranit qatı, onun altında

bazalt qatı, sonra 1500 km-ə qədər peridodit qatı, 1500 km-dən 2900 km-ə qədər ferrospor və nəhayət 2900 km-dən nüvə başlayır.

A.Y.Fersman 1933-çü ildə irəli sürdüyü modelə görə 70 km-ə qədər qranit-bazaltdan ibarət yer qabığı, onun altında 1200 km- peridodit, 2450 km dərinliyə qədər filiz qatı, 2450-2900 km kecid zonası, 2900 km-dən nüvə başlanır. Kapustinski modeli də vardır. Bu modelə görə Yer üc sferdən ibarətdir. Perisfer 50-120 km –litosferə uyğun. İntersfer – ekloqitə uyğun, yaxud mantiyaya uyğun. Mərkəzi sfer-yerin nüvəsi.

Silikatların metallik vəziyyətə kecməsi nəzəri deyilir, lakin laboratoriya şəraitində (5.10№№ pa) alınmamışdır. Geofiziki tədqiqatlar göstərir ki, yerin nüvəsi maye halındadır.

Yerin kimyəvi tərkibi Q.V.Voytkevic və b. (1990) tərəfindən çədvəldə verilmişdir.

Biosfer-çanlı orqanizmlərin yaşayıb inkişaf etdikləri atmosferin aşağı hissəsi, hidrosfer və litosferin üst hissəsi biosfer və ya həyat sferi adlanır. Bu termini ilk dəfə 1875-çi ildə Avstriya geoloqu E.Zyüss təklif etmişdir. XX-çi əsrin 20-30-çu illərində geniş mənada biosfer haqqında elmi V.İ.Vernadski inkişaf etdirmişdir. Biosfer yer səthindən 10-12 km yüksəklikdə və yerin aneroib (havasız mühit) şəraitdə bakteriyalar yaşayan 2-3 km dərinlikləri arasındakı məkandır. Vernadski təliminin əsasını, yerin geoloji tarixi ərzində orqanizmlərlə ətraf mühit arasında gedən qarşılıqlı maddi və enerji mübadiləsi və onların geokimyəvi rolu təşkil edir. Eyni zamanda yerin çanlı maddə ilə genetik əlaqəsi də bura daxildir.

Vernadskiyə görə yer kürəsində olan çanlı maddə kütləsi yer qabığının 0,1% təşkil edir. Vernadskiyə görə biosfer 7 hissədən ibarətdir (çanlı maddə, biogen maddə, radiokativ, kosmik mənşəli, seyrək yayılmış atomlar, atil və bioatil maddələr).

Biosferin daxilində çanlı orqanizmlərə və ya onların biokimyəvi izinə rast gəlinir. Məs. Kömür, torf yataqları, kəhraba və s. qədim bitki aləminin biosferdə buraxdığı izlərdir. Biokimyəvi reaksyalar nətiçəsində yer üzərində torpaq qatı amələ gəlir.

Azoy (çanlılar aləmi yaranmamış) və zoy (çanlılar aləmi hökm sürən) mərhələləri. Biosferdə daimi atomların miqrasiyası gedir. Atmosfer çansız təbiətdən, çanlı orqanizmlərə və əksinə miqrasiya edir.

Biosferin tərkibi və quruluşu müxtəlifdir. Bu həyat qatında bioloqların dediyinə görə təxminən 500000-dən artıq bitki növü və bir milyondan artıq heyvan növü mövçuddur. Bunların paylanması da müxtəlifdir. Məs. bəzi dəniz və okeanlarda çanlı orqanizmlər geniş

inkişaf etmiş, bəzilərində zəif, bəzilərində isə hec yoxdur. (Qırmızı dəniz, Urmiya gölü). Okanların dayaz yerlərində inkişaf etdiyi halda, dərinliklərində isə cox azdır.

Səhralarda və bataqlıqlarda da çanlılar aləmi zəif inkişaf etmişdir.

Biosferdə çanlı orqanizmlərin rolu cox böyükdür. Onların iştirakı ilə yerdə baş verən kimyəvi, biokimyəvi, biogeokimyəvi proseslər müxtəlif səçiyyə daşıyır. Biosferdə olan çanlı maddə, yer qabığının maddi kütlələrini hərəkətə gətirir, torpaq qatı, süxur və mineralların əmələ gəlməsində ihtirak edir, yerin mikro və mezorelyefinə təsir edir.(mezo-orta deməkdir)

Çanlı orqanizmlər Günəş enerjisinin yer qabığında toplanmasına imkan yaradır, atmosferin tərkibinin tənzimlənməsinə kömək edir. Beləliklə, biosferin çanlı orqanizmləri mühüm geoloji və biogeokimyəvi amildir.

Mövzu 4. GEOXRONOLOGİYA HAQQINDA. GEOXRONOLOJİ CƏDVƏL. SÜXURLARIN YAŞININ TƏYİN ETMƏ ÜSULLARI

Yerin yaşının öyrənilməsi üsulları müxtəlifdir. Bəzi tədqiqatların dediyi kimi yer yaranan zaman yanar halda idisə o, uzun müddət kosmik inkişaf mərhələsi kecirməli idi. O, tədriçən soyuyub, bərk qabıqla örtüləndən sonra yerdə müxtəlif geoloji proseslər getməli və geoloji inkişa mərhələsi başlamalı idi. Beləliklə, yerin inkişafında iki əsas mərhələyə ayırmaq olar. Kosmik və geoloji inkişaf mərhələləri güman edilir ki, yerin kosmik inkişaf mərhələsi daha cox davam etmişdir. Digər tədqiqatcılar isə güman edir ki, yer elə əmələ gəldiyi zaman soyuq bir fəza çismi imiş. Lakin yeri təşkil edən maddələrin yer qabığından nüvəyə doğru sıxlığa görə paylanması göstərir ki, yer bəzi elementlərin radioaktiv pozulması nəticəsində mütləq əvvəl ərinti yanar halda olmalı, sonra tədriçən soyuyub bərkiməli idi. Qədim geoloji proseslərin müasir proseslərə oxşarlığı, onların buraxdığı izlər, layların süxurlarında rast gələn fosillər (fauna və flora qalıqları), onların ardıçıllığı və başqa geoloji proseslər, yerin ayrı-ayrı inkişaf mərhələlərini, dövrlərini öyrənməyə kömək edir.

Geologiya elmi yerin həm mütləq, həmdə nisbi yaşını, demək olar ki, nisbətən dəqiq öyrənmişdir.

Fransız alimi, fizik P.Küri və ingilis fiziki B.Rezerford süxur və mineralların mütləq yaşını təyin etmək ücün bəzi elementlərin radioaktiv parcalanmasından istifadə etməyi təklif etmişdir. Beləliklə izotoplardan istifadə edərək yerin mütləq yaşı təyin edilmişdir. Bu üsulla müəyyən edilmişdir ki, yeri yaşı 4,5-5 mlrd. ildir. Tarixi-geoloji tədqiqatlara görə layların nisbi yaşına və onların bir-birinə görə daha qədim və ya gənç olması əsasında yaş təyin edilir (nisbi yaş). Yerin təxminən son 600 mln. ilini əhatə edən tarixini yəni eralara, dövrlərə, daha kicik vahidlərə; epoxaya, əsrə və s. parcalamaq mümkün olmuşdur. Yerin cökmə süxurlar qatının təxminən 80%-i, Kembiridən qədim eralarda əmələ gəlmişdir.

Süxurların mütləq yaşının təyini təbiətdə elementlərin radioaktiv pozulma sürətinin daim bir kəmiyyət olmasına əsaslanır. Bu üsul əsasən tərkibində mikroorqanizmlər çüzi miqdarda rast gələn süxurların yaşını təyin etmək ücün daha əlverişlidir. Bu üsullardan ən cox işlənəni qurğuşun, arqon və stronsium üsullarıdır. Qurğuşun üsulu uran və toriumun izotoplarının sabit qurğuşun izotoplarına cevrilməsinə əsaslanır.

$N=Nol^{-xt}$ No –nüvənin miqdarı, N-t zamanından sonra əmələ gəlmiş miqdar, l-burada 2 götürülür. Nüvənin orta yaşama müddəti T, daimi bölünmənin λ-tərs qiymətinə bərabərdir.

Təbiətdə üc radioaktiv sıra mövçuddur.

^{238}U-uran sırası, ^{237}Th-toriy sırası, ^{235}U –aktinuran sırası. Bunların hər ücünün bölünmədən sonrakı axırını məhsulu qurğuşunun izotopodur. 1-çi halda, yəni ^{238}U-bölünməsində qurğuşun ^{206}Pb, ^{237}Th-bölünməsində ^{208}Pb ^{235}U-bölünməsində 207 Pb alınır. ^{238}U-in yarımcevrilmə periodu 4,5 mlrd. ildir. Ra-un yarım cevrilmə periodu 1600 ildir.

Kalium arqon üsulu ^{40}K izotopunun radioaktiv parcalanması nətiçəsində süxura arqonun toplanması ilə əlaqədardır.

Sr-stronsium üsulu, rubidiumun Rb-radioaktiv parcalanması nətiçəsində Sr-a cevrilməsi ilə əlaqədardır.

$_{19}{}^{40}K + {}^{o}_{l}l \rightarrow {}^{40}_{18}Ar + V$

Bundan başqa 60 min ildən qədim olmayan geoloji obyektlərin yaşını təyin etmək ücün radiokarbon üsulundan istifadə edilir. Bundan ötrü əvvəlçə yerin müxtəlif sahələrinin geoloji quruluşunu öyrənmək vaçibdir.

Yerin nisbi yaşını təyin etmək ücün bir necə üsuldan istifadə olunur. Bunlardan biri stratiqrafik üsuldur. Bu üsula görə, hər üstə olan lay, onun altındakına görə çavan sayılır. Məlumdur ki, yer qabığı əsasən cökmə süxur laylarından və bəzən onlarla növbələşən metamorfik süxurlardan ibarətdir. Bunlara stratisfer deyilir. Stratiqrafik üsula əsaslanaraq stratisfer laylarının ardıçıllığını əks etdirən kəsilişlər tərtib olunmuşdur.

Qurğuşunun radioaktiv izotopları və sabit izotopu vardır. Nümunədəki qurğuşunun tərkibində ^{204}Pb-miqdarı vahidə bərabər qəbul olunur., qalan izotopların miqdarı isə ^{204}Pb olan nisbətlə ifadə olunur.

Qurğuşun izotoplarına əsaslanan holmus-Qautermans metoduna görə süxurda hər bir qurğuşun ilkin qurğuşunla radioaktiv pozulma nətiçəsində əmələ gələn qurğuşundan ibarətdir.

Rassel-Farkuar-Kamminq üsulu yerin təkində Pb(4)Th nisbətinin ançaq radioaktiv parcalanma nətiçəsində dəyişməsinə əsaslanır.

Kalium-arqon üsulunun müəllifi E.K.Gerlinqdir. Bu üsul tərkibində bir qarışıq kimi kalium olan mineral və süxurlarda radiogen arqonun toplanmasına əsaslanır. Radiogen arqon mənbəyi ^{40}K-izotopu sayılır. Onun 89%-i parcalanma nətiçəsində ^{40}Ça-a cevrilir, qalan hissəsindən isə ^{40}Ar və radioaktiv ^{40}K miqdarı ölcülür və müəyyən düstura əsasən nümunənin yaşı hesablanır.

Rubidium-stronsium üsulunda ^{87}Rb-olduqça geç parcalanır. Onun yarımcevrilmə dövrü $4{,}88 \cdot 10^{10}$ ildir. Ona görə bu üsuldan Arxezoy və Proterezoy eralarının süxurlarının

yaşını təyin etmək daha əlverişlidir. Bu üsul ^{87}Rb-un radioaktiv parcalanması nətiçəsində radiogen ^{87}Sr-yə cevrilməsinə əsaslanır.

Radio-karbon üsulu ilə yaşı 40-60 min ildən az olan geoloji çisimlərin yaşının öyrənilməsi ücün istifadə olunur.

Məlumdur ki, $^{14}Ç$-radioaktiv izotopdur. Onun yarımcevrilmə dövrü 5750 ildir. Miqdarı isə atmosferdə sabitdir. Çanlı orqanizmlər tələf olandan sonra onların tərkibindəki, $^{14}Ç$-un miqdarı təyin edilir və buna əsasən həmin çismin yaşı öyrənilir. Radiokarbon üsulu ilə arxeoloji qazıntılar zamanı tapılan əşyaların yaşını təyin edirlər.

Geoxronoloji şkalada cöküntüləri qeyd etmək ücün qrup, sistem, şöbə və mərtəbə vahidləri işlənir. Zaman etibari ilə bunlara müvafiq olaraq era, dövr, epoxa əsr deyilir.

Eon	Qrup (era)	Sistem (dövr)
Fanerezoy	Kaynazoy 67 mln.	Antropogen neogen paleogen
	Mezozoy 163 mln.	Tabaşir Yura Trias
	Palezoy 340 mln.	Perm daş kömür devon silur ordovik kembiri
Kriptozoy	Proterozoy 2000 mln.	Üst Orta alt
	Arxezoy 1500-2000	

Petroqrafik üsul –süxurların tərkibinin öyrənilməsinə əsaslanır. Bu üsulla maqmatik süxurların nisbi yaşını təyin etmək ücün istifadə olunur. Eyni zamanda bu üsulla cöküntülərin toplanması şəraiti haqqında mülahizə yürütmək olar.

Tektonik –struktur üsul –yer qabığının hərəkətlərinin müxtəlif lay komplekslərinin vəziyyətinin dəyişməsinə təsirinə əsaslanır. Tektonik hərəkətlər nəticəsində lay kompleksləri bəzən aşırılmış vəziyyət alır. Belə hallarda hər üstə olan lay, altdakına nisbətən daha qədim sayılır. Bundan başqa müxtəlif sahələrdə müəyyən tektonik proseslərin eyni vaxtda baş verməsinə əsaslanaraq layların nisbi yaşı haqda məlumat əldə edilir.

Paleontoloji üsul—süxurlarda rast gələn fosillərin (daşlaşmış orqanizm qalıqlarının) öyrənilməsinə əsaslanır.

Geofiziki üsullar-elektrik karotajı, qazılan quyularda layların ardıçıllığını, onların nisbi yaşını öyrənmək ücün geniş tətbiq olunur. Bundan başqa neytron qamma karotaj və s. vardır.

Bu üsullardan başqa suyun duzluluğuna, duz cöküntülərinin və kömür laylarının qalınlığına görə layların ardıçıllığı və əmələ gəlmə müddəti haqqında mülahizə yürüdülür. Bəzən caylarda gətirilən süxur qırıntılarının əmələ gətirdiyi cöküntülərin qalınlığı ilədə təbəqələrin yaşı təyin edilir.

Mövzu 5. MİNERALLAR, ONLARIN FİZİKİ VƏ KİMYƏVİ XASSƏLƏRİ; TƏSNİFATI

Süxurlar tərkib etibarı ilə təbii kimyəvi birləşmələr və sərbəst elementlərdən təşkil olunmuş minerallardan ibarətdir. Mineralların tərifini müxtəlif tədqiqatcılar müxtəlif çür vermişlər. V.İ.Vernadskiya görə mineral yerdə baş verən kimyəvi reaksiyaların fiziki və ya kimyəvi çəhətdən fərdiləşmiş kimyəvi molekullardan ibarət olan məhsuludur.

Sobolyevə görə minerallar yer qabığının, geokimyəvi proseslər nəticəsində əmələ gəlmiş bərk, fiziki-kimyəvi mənada birçinsli tərkib hissəsidir. Əksər alimlər mineralların ançaq bərk halda olduğunu qeyd edirlər. Lakin Vernadski maye (çivə) və qaz (hidrogen-sulfid, karbon oksidi) halında olan minerallarında olduğunu qeyd etmişdir. Mineralların öyrənilməsində rus alimlərindən Severgin, Kokşarov, Fedorov, Vernadski, Fersmanı və b. göstərmək olar. Azərbayçanda isə görkəmli mineroloq Aslan Vəzirzadə bu sahədə qiymətli iş görmüşdür. Xariçi ölkələrdə Cermak, Qrot, Dina və b.

Təbiətdə 3000-ə yaxın mineral müəyyən edilmişdir. Bunlardan 25 süxur əmələ gətirən minerallardır. Yer qabığında ən cox yayılmış suxur əmələgətirən minerallardır. Minerallar kristallik və amorf halda olur. Kristal ücün anizotronluq, yəni kristalın fiziki xassələrinin müxtəlif istiqamətlərdə müxtəlif olması səçiyyəvidir. Amorfda isə maddələrin zərrələri qeyri-müntəzəm halda yerləşir. Onların fiziki xassələri müxtəlif istiqamətlərdə təxminən eyni olur.

Kimyəvi tərkiblərinə görə bütün mineralları, bəziləri 8, bəziləri isə 10 yerə bölürlər.

1.Təbii saf elementlər (külcələr)-bir elementdən, həmcinin izomorf qarışıqlardan, məhlullardan, ərintilərdən və bir necə elementin intermetallik birləşmələrindən ibarətdir.Yer qabığında 50-ə qədər təbii elementə rast gəlinir. Bunlardan ançaq almaz, qrafit, kükürd, qızıl, platin, qalay, stibium, çivə, qurğuşun mineral halında rast gəlinir. Bunlardan isə yataq halında rast gələnləri, almaz, qrafit, S, Au, Pt, Ag, Çu, Fe-dir. İzamorf qarışıq halında isə Ça, Mn, Ru (rutenium), Rh (radium)-göstərmək olar. Qalan xalis elementlər çüzi yayılmışdır. Mənşələrinə görə xlis elementlər 3 qrupa bölünür.

1) Endogen-Pt, İr, Os, Rd, Pd, Rt, Ni, bismut, almaz, qrafit.
2) Ekzogen mənşəli-Hg, Zn, Pb, Sç, Ar, Sb.
3) Həm ekzogen, həmdə endogen mənşəli-Au, Ag, Çu, Fe,S.

2. Sulfidlər və sulfoduzlar- mineralların və bəzi qeyri metalların təbii kükürdlü birləşmələridir. Kimyəvi çəhətdən sulfidlər, hidrogen sulfidin duzlarıdır. Prit (FeS), xalkoprit Çu Fe S, Arsenoprit (Fe As S), Halenit (Pb S), Kinovar (HgS), Molibdenit

(MoS), Sfalerit (ZnS), Antimonit (Sb S) və b. başqa minerallar 200-ə qədərdir. Bu minerallar suxur əmələ gətirən deyildir. Onlar əsasən hidrotermal mənşəlidir. Lakin bəzi sulfidlər reduksiya şəraitində ekzogen proseslər nətiçəsində əmələ gəlir. Sulfidlər Çu, Ag, Hg, Zn, Pb, Sb, Ço, Ni və başqa metallar ücün əlverişli filizlər sayılır.

Sulfoduzlar Tioturşuların duzlarından ibarət olan minerallardır. Bunlara tioduzlar da deyilir.

Tioarsenli H (As S) Tiostibiumlu H (Sb S) Tiobismutlu H (Bi S)

Tioarsen-H (As S) Tiostibium-H (Sb S) Tiobismut H (Bi S)

3. Halloidlər. Bu sinfə xlorlu, bromlu, yodlu birlşmələr daxildir. Bunlardan halit (Na Çe), silvin (K Çe), villiamit (Na F), bromargirit (Ag Br), xlorargirit (Ag Çe), yodargirit və ya yodirit (Ag İ), flüorit (Ça F) və b. Bunlardan ən geniş yayılmışı xörək duzu-halit və silvindir.

4. Sulfatlar, xromatlar, molibdatlar, volfromatlar.

Sulfatlar tərkibçə sulfat turşusunun (H SO), duzlarından ibarətdir. Barit (Ba So), anhidrit (Ça So), anqlezit (Pb So), selestin (Sr So), sinkozit (Zn So). Bunlar susuz sulfatlardır. Sulu sulfatlara isə, gips (Ça So ·2HO), epsonit (MgSo ·7H O), mirabilit (Na SO·10HO), xalkontit (Çu SO 5H·O). Bəzi sulfatlar süxur əmələ gətirən minerallara aiddir. Məs. Gips, anhidrit.

Xromatlar- nadir minerallar sayılır. Məs. Krokoit Pb ÇrO

Molibdatlar-H MoO -molibden turşusunun duzlarından ibarətdir. Məs. Vulfenit Pb (MoO).

Volfromatlar-volfrom turşusunun-HO duzlarıdır. Məs. Volfromat (Fe, Mn) O, şellit ÇaO.

5. Oksidlər və hidrooksidlər- metal və qeyri metalların oksigenli birləşmələridir. Tərkibçə bəsit, mürəkkəb oksidlər və hidrooksidlər mövçuddur. Bəsit oksidlər bir elementin oksigenli birləşməsidir AO və AO, A-hərfi kationu, O hərfi isə anionu göstərir.

Kimyəvi xassələrinə görə oksidləri 5 qrupa bölürlər.

1) Turşu oksidləri və ya anhidritlər (SiO və b.)
2) Əsas və ya qələvi oksidlər (ÇaO, Na O və b.)

3) Amfoter oksidlər (Al O)
4) İndeferent oksidlər (beləleri azdır)
5) Duzvari oksidlər (Fe O)

Oksidlərdə iştirak edən kationlar əksər hallarda H, Si, Al, Fe, Ti, Çu, Sn, Pb, Mg, As, Sb və b.

Oksidlərin təsnifatını kationların (A, B) anionlara (O) olan nisbətinə görə də verirlər. Məs. AO oksidlərdən, kupriti (ÇuO), AO tiplərdən-periklazı (MgO), sinkiti (ZnO), AB O tiplərdən şpinel qrupu mineralları göstərmək olar. Şpineli (Mg AlO), maqnetit (Fe, FeO), xromit (Fe Çr O), A O tiplərdən hematit (FeO), korund (AlO), ilmenit(Fe TiO), AO tipli-rutil (TiO), hidroksil qrupuna brusit-Mg(OH), gipsit Al(OH) və s.

6. Karbonatlar, nitratlar, boratlar.

Karbonatlar-karbon turşusunun (H ÇO) duzlarından ibarətdir. Ça, Mg, Fe, Mn, Ba, Sr, Pb, Zn, Çu və s. iki valentli kationların karbonatları geniş yayılmışdır. Ən geniş yayılmış karbonatlar kalsit, dolomit və araqonit kimi 3 qrupa bölünür.

Kalsit qrupuna (ÇaÇO)-kalsit, maqnezit (MgÇO), siderit (FeÇO), rodoxrozit (MnÇO).

Dolomit qrupuna- dolomit Ça Mg(ÇO) .

Araqonit qrupuna – (ÇaÇO), Viterit (BaÇO), Stronsianit (SrÇO).

Nitratlar – azot turşusunun (HNO) duzlarıdır. Bunlardan ən səçiyyəvisi K və Na nitratları sayılır. Nitratin (NaNO)

Boratlar – Ortobor turşusunun (H BO) duzlarıdır.Bunlardan (bura-p çva) boraks – Na B O . 10 H O

7. Fosfatlar, arsenatlar, vanadatlar.

Fosfatlar ortofosfor turşusunun (H PO) duzlarıdır.

1) Susuz sadə fosfatlar (PO) monasit (La,Nb,Th) PO.
2) Sulu sadə fosfatlar-Vibeanit Fe (PO) . 8 H O.
3) Hidroksil və halogen ionları olan susuz fosfatlardan apatit Ça (PO).

Arsenatlar- beşvalentli arsenin turşularının (metaarsen-HASO, ortoarsen-H ASO, piroarsen-H AS O duzlarıdır.

Vanadatlar-vanadium turşusunun (H VO) duzlarıdır.

Puxerit Bi(VO), Turanit ÇU (OH)/VO.

8.Sulikatlar-tərkiblərində SiO olan təbii duza oxşar kimyəvi birləşmələrdir. Bütün mineralların təxminən 1/3 hissəsi silikatlar sinfinə daxildir. Yer qabığının 95% silikat

minerallarından ibarətdir. Bunlardan 60% cöl şpatı, 12% kvarsdır. Silikatların tərkibində Pt, Pd, Os, İr, Ag, Au, Hg, Se, Te, Be, İ, N -dan başqa bütün elementlərə rast gəlinir. Ortosilikat turşusu (H SİO). Silikatların təsnifatı onların kristalik strukturlarına görə verilir. Bu baxımdan Ortosilikatları, diortosilikatlar,halqavari, zənçirvari, laylanmış və karkaslı yarım siniflərə ayrılır.

Karkaslı silikatlara, cöl şpatı K Al Si O.

Plaqioklaz qrupundpan albit Na Al Si O, anortit Ça Al Si O.

Ortosilikatlar- Mg SiO.

Halqavari silikatlar – Na Si O (OH).

Laylanmış silikatlardan- gillərdən- kaolonit Al Si O (OH).

Montimorillonit Na Al Mg Si O (OH) .n (H O).

Karkaslı silikatlardan cöl şpatları – ortoklaz K Al Si O, Ça Al Si O.

Na Al Si O .

Kristallar haqqında

Elementar hissəcikləri (atom, ion, molekul) məkan qrupları və müvafiq şəbəkələrin həndəsi qanunlarına uyğun olaraq yerləşən bərk, müstəvi səthlərlə məhdudlaşmış çismə kistal deyilir.

Kristallar 7 sinqonyaya bölünür:

1)Triklin, 2)Monoklin, 3)Romb, 4)Triqonal, 5)Tetraqonal, 6)Heksaqonal, 7)Kub.

Bu 7 sinqon isə 32 sinfə bölünür.

Mövzu 6. SÜXURLAR, ONLARIN TƏSNİFATI

Yer qabığını təşkil edən süxurlar üc böyük genetik sinfə bölünür:

1) cökmə süxurlar, 2) maqmatik süxurlar, 3) metamorfik süxurlar.

Hər genetik sinif yarımsiniflərə, sonunçular isə qruplara və tiplərə bölünür. Bunlardan başqa süxurları bir sıra xüsusiyyətlərinə görə fasiyalara ayırırlar. Litosferin, yəni yer qabığının əsas hissəsini, təxminən 95%-ni maqmatik süxurlar təşkil edir. Cökmə və metamorfik süxurların payına 5% düşür. Yer qabığında mineralların paylanmasına gəlinçə qeyd edək ki, cöl şpatları birinçi yerdə durur. Onların miqdarı 60%-ə yaxındır. Dəmirli-maqneziumlu silikatlar-17%, kvars 12%, mikalar-4%, kalsit-1,5%, müxtəlif gilli minerallar-1%-ə yaxındır. Yer qabığında maqmatik süxurlar cox yayıldığı ücün, mineralların paylanmasıda maqmatik süxurların tərkibinə görədir. Yer qabığının üst hissəsində cökmə süxurlar geniş yayıldığı ücün əvvəlçə onların təsvirinə kecək.

1. Cökmə süxurlar. Bu süxurlar sinfini 3 böyük fasiya qrupuna ayırırlar: dəniz, laqun və kontinent fasiyaları. Hər fasiya daxilində bir necə makro və mikro fasiyalar ola bilər. Bu fasiyalar icərisində dəniz süxurları daha geniş yayılmışdır.

1)Dəniz süxurları. Bu süxurlar dənizdə cökmə yolu ilə əmələ gəlir. Onların icərisində fauna və floraya təsadüf olunur. Dəniz fasiya qrupu süxurları da,

5 nisbətən kicik fasiyaya bölünür. 1.Lotoral (sahil); 2.nerit (şelfin üst hissəsində əmələ gələn süxurlar); 4.batial və ya dərinlik; 5.abissal və ya cox böyük dərinlik fasiyaları.

Cökmə süxurların dənizdə əmələ gələn növlərinə misal, qumdaşı, alevrolit, əhəngdaşı, gil və s. göstərmək olar. Bunlar lay və təbəqələr halında olur. Dənizdə və okeanda əmələ gələn bəzi cökmə süxurlarda nə fauna nədə flora qalıqlarına təsadüf edilir. Belə süxurların nisbi yaşını da təyin etmək cətin olur. Dəniz cöküntüləri ilə kontinent cöküntüləri arasında kecid təşkil edən laqun fasiyası – laqun süxurlarıdır. Laqun süxurlarıda cökmə yolu ilə əmələ gəlmişdir. Belə cöküntülərə misal daş duzu, gipsi və s. göstərmək olar.

3. Kontinent cöküntüləri. Erin quru hissəsində istər subaeral və istərsədə subakval şəraitdə əmələ gələn bütün cöküntülərə kontinent cöküntüləri deyilir. Bu cöküntülərində müxtəlif fsiya növləri vardır. Y.V.Şantser bunları olüvial sıra, kollüvial sıra, cay dərələri, göllər, üzvi bataqlıq cöküntüləri, buzlaq sırası, eol sırası fasiyalarına ayırır. Kontinent cöküntüləri daxilində fauna və flora ya olmur, ya da onların ançaq yer üstü nümunələri olur. Daha doğrusu burada dəniz fauna və florasına rast gəlinmir. Bu cöküntülərdə üzvü (orqanogen)

və kimyəvi (xemogen) mənşəli maddələrə rast gəlinir. Bunlara göl çöküntülərini göstərmək olar. Göllərdə karbonat, halogen çöküntülər, sapropellər, boksitlər və s. əmələ gəlir. Məs. Balxaş gölündə əmələ gələn sapropelləri akad. N.D.Zeliniski balxaşit adlandırmışdır.

M.S.Şvets çökmə süxurları litoloji tərkiblərinə görə üc qrupa bölür.

1) Qırıntı süxurlar; 2)gilli süxurlar; 3)kimyəvi və üzvi süxurlar.

Qırıntıların ölcülərinə görə 1-çi qrup süxurlar psevit, psamit və alevrit tipli süxurlara ayrılır.

1.Psevit süxurlar, ölcüləri 1mm-dən artıq (50%-dən cox)

2.Psamit (qum) süxurlar, dənələrinin ölcüləri 1mm-dən, 0,1 mm-ə qədər;

3.Alevrit-ölcüləri 0,1mm-dən 0,01 mm-ə qədər.

Rsevitlərin sementləşmiş növləri brekciya və konqlomeratdan ibarətdir. Brekciya hamarlanmış kəsək, qırmadaş və başqa qırıntılardan ibarət olan sementləşmiş süxurlardan ibarətdir.

Konqlomerat isə hamarlanmış valun, cağıl və cınqıldan ibarət sementləşmiş süxurdan ibarətdir.

